İqtisadi Tədqiqatlar Mərkəzi

# İstixana biznesi

*Kiçik sahibkarlar üçün bələdçi*

Bakı 2017

İstixana biznesi: Kiçik sahibkarlar üçün bələdçi
Bakı 2017, 32 səh.

**Müəllif:** Qalib Bayramov
**Redaktor:** Vahid Məhərrəmov

Bu nəşr Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) vasitəsilə Amerika xalqının göstərdiyi səxavətli dəstəyi nəticəsində ərsəyə gəlmişdir. Broşur "Kiçik sahibkarlığa dəstək" layihəsi çərçivəsində İqtisadi Tədqiqatlar Mərkəzi tərəfindən hazırlanmışdır. Müəllifin bu nəşrdə ifadə etdiyi fikirlər USAID və ya Amerika Birləşmiş Ştatları hökumətinin mövqeyini əks etdirməyə bilər.

**İqtisadi Tədqiqatlar Mərkəzi**
Az 1052, Bakı şəhəri, Fətəlixan Xoyski küçəsi 111a,
mənzil 23, tel.: 564 86 85,
e-mail: galib.togrul@gmail.com, veb: www.erc.az

**Mündəricat**


Ön söz ........................................................................................................................ 4

Giriş ..........................................................................................................................5

**1.İstixanaların (örtülü torpaqların) fəaliyyətinin dövlət qeydiyyatına alınması** ...........................6

1.2 Fərdi sahibkarın dövlət qeydiyyatının aparılması qaydası ...........................................................6

1.3.Hüquqi şəxsin dövlət qeydiyyatına alınması ..............................................................................7

**2. İstixanaların (örtülü torpaqların) tikintisi və ya quraşdırılması üçün icazənin alınması və tikilinin dövlət qeydiyyatı** ..........................................................................................................9

2.1 İstixanaların quraşdırılması və ya tikilməsi ilə bağlı icazənin alınması ........................................9

2.2 Quraşdırılmış və ya tikilmiş istixanaların dövlət qeydiyyatı ........................................................10

**3.İstixanalar üçün texniki şərtlərin alınması** ......................................................................11

3.1 Su və kanalizasiya xidmətləri..................................................................................... 12

3.2 Qazla təchizat .........................................................................................................13

3.3 Elektriklə təchizat ......................................................................................................14

3.4 Suvarmaya suyu ilə bağlı texniki şərtin alınması .......................................................................15

**4.İstixanalarda yetişdirilən məhsullar** ...........................................................................15

**5.Kənd təsərrüfatı məhsulları istehsalçılarına şamil olunan güzəştlər** .........................................16

5.1 Vergi güzəştləri.......................................................................................................... 16

5.2 Digər güzəştlər ............................................................................................................17

**6. İstixanalarda məhsul yetişdirən sahibkarların ödəməli olduqları vergilər** ...............................18

6.1Torpaq vergisi ..........................................................................................................18

6.1.1 Fiziki şəxslərin torpaq vergisi ilə bağlı güzəştlər.................................................................. 23

6.2 Ödəmə mənbəyində vergi ...............................................................................................24

6.1.1 Muzdla işləyən fiziki şəxslərə görə ödəmə mənbəyində vergi ..............................................24

6.2 Məcburi dövlət sosial sığorta haqqı........................................................................... 25

**7. İşçilərlə əmək müqavilələrin bağlanılması** ............................................................................27

**8.İşçilərə sosial sığorta şəhadətnaməsinin alınması və əmək kitabçasına müvafiq yazılışların aparılması** ............................................................................29

**9.İşçilərin icbari sığortaya cəlb edilməsi** ..............................................................................29

10.İstixanaların quraşdırılması zamanı istifadə olunan karkas və örtük materialları .......................30

## Ön söz

Bələdçi Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyələşdirdiyi "Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək" layihəsi çərçivəsində hazırlanıb. Layihənin məqsədi Azərbaycanda kiçik sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasıdır. Bu məqsədlə layihə çərçivəsində kiçik sahibkarlığın vəziyyəti və problemləri araşdırılır, qanunvericiliyin təkmilləşdirilməsinə, dövlət idarəetmə institutlarının gücləndirilməsinə dair təkliflər hazırlanır, konkret kiçik sahibkarlıq sahələrindəki maneə və çətinliklər təhlil edilir, qadın-ailə biznesinin inkişafına dair tədqiqatlar aparılır və tövsiyələr hazırlanır. Layihənin icraçıları Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (aparıcı təşkilat), İqtisadi Tədqiqatlar Mərkəzi, İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi, Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi, Gələcəyə Körpü Gəncə gənclər ictimai birliyi və Quba Xalça Dünyası Assosiasiyasıdır.

Kitabça Azərbaycanda kiçik sahibkarların aktiv fəaliyyət göstərdiyi sahələrdən biri olan istixana (örtülü torpaqlar) biznesinə həsr olunub. Bələdçidə istixana (örtülü torpaqlar) şəraitində kənd təsrrüfatı məhsulu istehsalı ilə məşğul olan sahibkarların fəaliyyətini tənzimləyən hüquqi prosedurlar, quraşdırılan və ya tikilən istixanalara tikinti icazəsinin alınması və tikilinin dövlət qeydiyyatı, dövlət tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq olunan vergi güzəştləri, subsidiyalar, sahibkarların vergi və sosial sığorta öhdəlikləri, işçi qüvvəsindən istifadənin rəsmiləşdirilməsi və digər vacib məsələlərlə bağlı məlumatlar əks etdirilib.

Bələdçi həm bu sahədə fəaliyyət göstərən sahibkarlar, həm də fəaliyyət göstərməyə hazırlaşanlar üçün nəzərdə tutulub. Bələdçini çapa hazırlayan ekspert qrupu ümüd edir ki, oxucular kitabçadan razı qalacaqlar.

**Giriş**

Azərbaycan müstəqillik əldə etdikdən sonra aqrar sahədə islahatlar aparılıb, yeni iqtisadiyyatın tələblərinə uyğun qanunvericilik bazasının yaradılmasına başlanılıb, torpaq islahatları həyata keçirilib. Aparılan islahatlar nəticəsində kənd təsərrüfatı istehsalı kooperativləri, ailə-kəndli təsərrüfatı və digər özəl qurumlar yaranıb və 843,2 min ailə pay torpağı əldə edib. Aqrar sahədə çalışan fermerlərin, kəndlilərin vergi yükünü azaltmaq məqsədilə 22 mart 1999-cu il tarixli Prezident fərmanı ilə kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad olunub. 2007-ci ildən isə fermerlərə yanacağın, motor yağının və gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsinə, əkin sahəsinə görə subsidiyaların verilməsinə başlanılıb. Eyni zamanda, kənd təsərrüfatının texniki təminatının yaxşılaşdırılması məqsədilə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılıb, istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnikanın və gübrələrin verilməsi prosesi bu gün də davam etdirilir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən ölkəmiz bir sıra məhsullar üzrə daxili tələbatı yerli istehsal hesabına ödəyir. Rəsmi statistikaya görə, 2015-ci ildə ölkə üzrə dənli və dənli paxlalıların istehsalı, 2 999 353 ton, payızlıq və yazlıq buğdanın istehsalı, 1 687 681 ton, tərəvəz istehsalı 1 275 257 ton, o cümlədən xiyar 230 747 ton, pomidor 515 160 ton, kələm isə 94 554 ton olub. Qeyd edək ki, örtülü torpaqlarda istehsal olunan tərəvəz məhsulları bu statistikaya daxil edilmir, onların statistikası ayrı aparılır. 2015-ci ildə ölkə üzrə örtülü torpaqlarda tərəvəz istehsalı, 41 889 ton olub ki, ötən 3 illə müqayisədə istehsalda azalma müşahidə olunub. Belə ki, 2012-ci ildə bu rəqəm 53 342 ton, 2013-cü ildə 56 801 ton, 2014-cü ildə isə 51 409 ton olub. Elə 2014-cü illə müqayisədə tərəvəz istehsalı 23% aşağı düşüb. İstixanalarda tərəvəz istehsalında son illər həmişə Gəncə-Qazax iqtisadi rayonu öndə olub. 2015-ci ildə ölkə örütülü torpaqlarda tərəvəz istehsalının yarıdan çoxu bu iqtisadi rayonun payına düşür: 21 795 ton. Daha sonra Aran iqtisadi rayonu gəlir: 7 716 ton.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda etibarlı ərzaq təminatı ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərti kimi qiymətləndirilir. Proqramda o da qeyd olunur ki, ölkədə əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam təminatı hələ ki, mümkün olmayıb. Bu da istixanalarda (örtülü torpaqlarda)[1] məhsul istehsalının əhəmiyyətini və aktuallığını şərtləndirir.

İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığa Kömək Fondunun 2015 –ci il üzrə hesabatında göstərilir ki, yeni texnologiyalara əsaslanan investisiya layihələrinin güzəştli qaydada maliyyələşdirilməsi sahəsində işlər 2015-ci il ərzində də davam etdirilmiş və bu məqsədlə 65 investisiya layihəsi maliyyələşdirilmişdir. Bu layihələrdən biri də 98.8 ha ərazidə 13 istixana

[1] Dövlət Statistika Komitəsinin statistik məcmuə və buraxılışlarında istixanaları xarakterizə etmək üçün "örtülü torpaqlar" terminindən istifadə olunur.

kompleksinin yardılmasıdır. Fondun 2015-ci il üzrə hesabatına əsasən, 40.3 ha ərazidə daha 7 istixana kompleksinin quraşdırılması gözlənilir.

## 1. İstixanaların (örtülü torpaqların) fəaliyyətinin dövlət qeydiyyatına alınması

Azərbaycanda biznes fəaliyyətinin dövlət qeydiyyatına alınması üçün "Vahid pəncərə" sistemindən istifadə edilir. Bu sistem "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 aprel 2007-ci il tarixli, 567 saylı Fərmanı və "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli, 2458 saylı Fərmanı ilə tənzimlənir. Vergilər Nazirliyi (VN) özünün regional bölmələri ilə birlikdə "Vahid pəncərə" prinsipi üzrə qeydiyyatın aparılmasına məsul təşkilatdır. Başqa sözlə desək, VN AVİS proqram təminatı vasitəsilə biznes qurumlarının dövlət qeydiyyatını aparan dövlət orqanıdır.

İstixana müəssisəsi yaradıb sahibkarlıqla məşğul olmaq istəyənlər vergi orqanlarında fərdi sahibkar və ya hüquqi şəxs kimi qeydiyyatdan keçə bilərlər.

### 1.2 Fərdi sahibkarın dövlət qeydiyyatının aparılması qaydası

Vergi orqanında uçota alınmaq üçün istixanalarda tərəvəz istehsalı biznesi ilə məşğul olmaq istəyən fiziki şəxs tərəfindən yaşadığı yer üzrə vergi orqanına aşağıdakı sənədlər təqdim edilməlidir:
- *"Fiziki şəxsin vergi uçotu haqqında Ərizə";*
- *fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti;*
- *əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən ona verilmiş vəsiqə.*

Sənədlər daxil olduğu gündən sonrakı 1 gün müddətində vergi orqanı fiziki şəxsi **ödənişsiz** vergi uçotuna alır və vergi ödəyicisinə müvafiq şəhadətnamə verilir.

Fiziki şəxslərin elektron formatda vergi uçotuna alınması isə **dərhal** həyata keçirilir və müvafiq şəhadətnamə onlar üçün ayrıca yaradılmış elektron ünvana real vaxt rejimində göndərilir.

Uçota dayanma zamanı verilən ərizədə fiziki şəxs digər məlumatlarla yanaşı tətbiq edəcəyi vergitutma sistemi barədə məlumatı da qeyd edir və ödəyicinin vergi öhdəliklərinə uyğun olaraq onun vergi mükəlləfiyyəti müəyyənləşdirilir.

Vergi ödəyicisi qeydiyyata alınarkən onun vergi uçotuna alınmasını təsdiq edən şəhadətnamə ilə yanaşı ödəyiciyə "Nəzarət kitabçası" da təqdim olunur.

Qeyd olundugu kimi fiziki şəxs onlayn rejimdə də qeydiyyatdan keçmə imkanına malikdir. Bunun üçün həmin şəxs VN-nin səhifəsindəki (www.taxes.gov.az) "E-xidmətlər" bölməsindən "Fərdi sahibkarların onlayn qeydiyyatı" adlı elektron xidmət vasitəsilə İnternet Vergi İdarəsinə (www.e-

taxes.gov.az) daxil olmalıdır. Bunun üçün isə, ilk növbədə, fiziki şəxsin gücləndirilmiş elektron imzası olmalıdır[2].

Fərdi sahibkarlar elektron imza kartını Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) nəzdində fəaliyyət göstərən Milli Sertifikat Xidmətləri Mərkəzinin (MSXM) qeydiyyat mərkəzlərindən ala bilərlər. Elektron imza üçün sertifikat əldə edərkən aşağıdakı qaydalara riayət etmək lazımdır.

Ərizə ilə müraciət olunur və ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

- imza sahibinin şəxsiyyətini təsdiq edən sənədin surəti;
- imza sahibinin adından çıxış etmək səlahiyyəti olan şəxsə verilən etibarnamə;
- ödəniş qəbzi.

Fərdi sahibkar sertifikatın alınması üçün **36 AZN dövlət rüsumu** ödəməlidir (Bu məbləğə kart oxuyucu qurğunun qiyməti daxil deyil. **Qurğu 15 manatdır**)[3] və bu sənəd **3 illik** qüvvəyə malikdir. Sertifikatın verilməsi müddəti fərdi sahibkarlarda və hüquqi şəxslərdə eynidir. Elektron imza sertifikatı sənədlər təqdim edildikdən sonra **2 gün ərzində** verilir.

### 1.3 Hüquqi şəxsin dövlət qeydiyyatına alınması

1 yanvar 2008-ci il tarixdən Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti subyektlərinin (kommersiya hüquqi şəxslərin, xarici kommersiya hüquqi şəxslərin filial və nümayəndəliklərinin) dövlət qeydiyyatı vahid qeydiyyat orqanı prinsipi ilə VN tərəfindən həyata keçirilir. Belə ki, hüquqi şəxs statusu almaq istəyən istixanaların dövlət qeydiyyatı **2 gündən gec olmayaraq**, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı sürətli elektron dövlət qeydiyyatı zamanı **dərhal**, adi elektron dövlət qeydiyyatı zamanı isə **1 gündən gec olmayaraq** həyata keçirilir.

«Dövlət rüsumu haqqında» Qanunun 20-ci maddəsinə uyğun olaraq istixana sahibləri qeydiyyat zamanı dövlət büdcəsinə **3 manat məbləğdə dövlət rüsumu** ödəməlidir[4].

İstixana biznesi ilə məşğul olmaq istəyən Sahibkarlar öz müəssisələrini qeydiyyata almaq üçün aşağıdakı 7 sənədi təqdim etməlidirlər[5]:

1. *Ərizə forması. Ərizədə aşağıdakılar göstərilir:*

- *Təsisçi fiziki şəxs olduqda: onun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənəd (seriya, nömrə, verilmə tarixi, sənədi verən orqan, etibarlıq müddəti, ünvan);*
- *Təsisçi hüquqi şəxs olduqda: onun adı, hüquqi ünvanı, qeydiyyat nömrəsi;*

---

[2] Fiziki şəxsin onlayn qaydada qeydiyyatdan keçməsi üçün tələb olunan addımlar barədə daha ətraflı məlumatı "Onlayn kargüzarlıq" internet səhifəsindən istifadə TƏLİMATIndan (https://www.e-taxes.gov.az/dispatcher?menu=ekarg&submenu=2&nav=ekarg) əldə edə bilərsiniz.

[3] http://www.e-imza.az/signtarif.php?lang=az

[4] http://www.e-qanun.az/framework/2860

[5] Məhdud Məsuliyyətli Cəmiyyət üçün Vergilər Nazirliyinin nümunəvi təsis sənədləri buradan əldə edilə bilər: http://www.taxes.gov.az/modul.php?lang=&name=birpencere&bolme=legal və ya http://sahibkarol.biz/gen/html/azl/virtual_tehsil/virtual_tedris-5.htm

- *Ərizə səlahiyyətli şəxs tərəfindən imzalandıqda: onun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənəd (seriya, nömrə, verilmə tarixi, sənədi verən orqan, ünvan) və vəkalətnamə haqqında məlumatlar.*

2. *Təsis sənədləri – təsisçi və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq olunmuş nizamnamə, həmin qurumun yaradılması və nizamnaməsinin təsdiq edilməsi haqqında qərar (2 nüsxədə);*
3. *Dövlət rüsumunun ödənilməsini təsdiq edən bank qəbzi;*
4. *Təsisçi hüquqi şəxs olduqda: onun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışın) və nizamnaməsinin notarial qaydada təsdiq olunmuş surəti;*
5. *Təsisçi fiziki şəxs olduqda: onun şəxsiyyətini təsdiq edən sənədin surəti;*
6. *Hüquqi şəxs statusu almaq istəyən qurumun hüquqi ünvanını təsdiq edən sənəd (notarial qaydada təsdiq edilmiş icarə, kirayə, pulsuz istifadə müqaviləsi, obyektin hüquqi ünvanından istifadə etmək barədə təsdiq olunmuş razılıq) və ya obyekt üzərində mülkiyyət hüququnu təsdiq edən sənəd;*
7. *Qanuni təmsilçinin təyin edildiyi halda, onun şəxsiyyətini təsdiq edən sənədin surəti.*

Qanunvericiliyə əsasən, müvafiq qaydada doldurulmuş ərizəni nəzərdən keçirdikdən sonra və onun rədd edilməsi üçün əsas müəyyənləşdirilmədikdə, ərizənin qəbul olunması tarixindən etibarən üç gün ərzində qeydiyyat şəhadətnaməsi verilməlidir.

Sahibkar hüquqi şəxs olduqda cari bank hesabının açılması üçün yerli vergi orqanı tərəfindən verilən xüsusi icazə formasını (bildiriş dublikatı) əldə etməlidir. Bildiriş dublikatı sahibkarın bank hesabının açıldığı banka ünvanlanmalıdır. Müəssisə bildiriş dublikatının verilməsindən sonra on gün ərzində bank hesabını açmalıdır. Bu imkan bildiriş dublikatını vergi bölməsindən almaq, onu banka təqdim etmək və sonra yenidən vergi bölməsinə qaytarmaq zərurətini aradan qaldırır.

Elektron dövlət qeydiyyatına alınmış hüquqi şəxsə VÖEN verilir, onun dövlət qeydiyyatı haqqında şəhadətnaməsi, dövlət reyestrindən çıxarışı və nizamnaməsi qeydiyyat orqanının rəhbərinin imzası ilə təsdiq edilərək hüquqi şəxsin elektron ünvanına göndərilir. Həmin sənədlərin kağız daşıyıcılarda alınması üçün səlahiyyətli şəxs tərəfindən şəxsiyyəti təsdiq edən sənədlə VN-nin müvafiq yerli vergi orqanına müraciət edilməlidir.

**Qeyd edək ki, elektron qeydiyyat pulsuzdur.** Hüquqi şəxslər üçün elektron imzanın alınması proseduru fiziki şəxslərdəki kimidir. Ancaq elektron imza sertifikatının qiyməti 2 dəfə yüksək **- 72 manat**dır, kart oxuyucu qurğunun qiyməti isə **15 manat**dır.

## 2. İstixanaların (örtülü torpaqların) tikintisi və ya quraşdırılması üçün icazənin alınması və tikilinin dövlət qeydiyyatı

### *2.1 İstixanaların quraşdırılması və ya tikilməsi ilə bağlı icazənin alınması*

Azərbaycan qanunvericiliyində örtülü torpaqlarda (istixanalarda) kənd təsərrüfatı məhsulu istehsalı ilə məşğul olmaq üçün xüsusi icazənin alınması nəzərdə tutulmur. İstixanaların quraşdirilması, tikintisinə icazə verilməsi isə Şəhərsalma və Tikinti Məcəlləsi ilə tənzimlənir. Məcələdə tikintisinə icazə tələb olunmayan tikinti obyektləri siyahısında **hündürlüyü ən çoxu 3 metr və sahəsi ən çoxu 300 kvadratmetr olan istixanalar və oranjereyalar da var[6].**

Lakin göstərilən ölçülərdən böyük istixana təsərrüfatları mütləq tikilini qeydiyyatdan keçirməlidirlər. İlk növbədə, sahibkarlıq məqsədilə tikinti işlərini həyata keçirmək üçün icazə xarakterli sənəd olan inşaat pasportu alınmalıdır. İnşaat pasportu müəyyən olunmuş torpaq sahəsində tikinti işlərini aparmaq üçün müxtəlif orqanlardan alınan rəylərdən, icazələrdən ibarət sənədlər toplusudur. İnşaat pasportu şəhər (rayon) icra hakimiyyətlərinin memarlıq və tikinti şöbələri (idarələri) tərəfindən verilir. Bunun üçün torpaq sahəsinin mülkiyyətçisi müvafiq şəhər (rayon) icra hakimiyyətinə müraciət edir. Şəhər (rayon) icra hakimiyyətləri rəy və icazələrin alınması üçün müvafiq qurumlara müraciət edir və həmin sənədləri toplayır. Sənədlər toplandıqdan sonra şəhər (rayon) icra hakimiyyəti inşaat pasportunu torpağın mülkiyyətçisinə verir.

İnşaat pasportunun alınması üçün 50 AZN dövlət rüsumu ödənilməlidir[7]. İnşaat pasportu və tikinti üçün icazə haqqında qərar əldə edildikdən sonra tikiləcək və ya quraşdırılacaq istixana obyektinin layihəsi hazırlanmalıdır. Layihələndirmə işi yalnız bu sahədə fəaliyyətə dair alınmış xüsusi razılığı (lisenziyası) olan hüquqi və ya fiziki şəxslər tərəfindən aparıla bilər. Layihə hazır olduqdan sonra layihə sənədləri müəyyən edilmiş qaydada dövlət ekspertizasından keçməli və təsdiq olunmalıdır. Layihənin təsdiq edilməsi tərəflərin arasında bağlanmış müqaviləyə əsasən ya layihəçi, ya da torpağın mülkiyyətçisi tərəfindən həyata keçirilə bilər. Layihə təsdiq olunması üçün şəhər (rayon) icra hakimiyyətinə təqdim edilir. Layihənin ekspertizası üçün 30 manat, təsdiqi üçün 60 manat dövlət rüsumu ödənilir[8].

İstixananın tikintisinə başlamazdan əvvəl tikinti üçün müvafiq texniki şərtlər alınmalıdır. Yerli icra hakimiyyəti orqanı tikintiyə icazə icraatı çərçivəsində şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun olaraq tikinti obyekti üçün təchizat müəssisələri tərəfindən texniki şərtlərin verilməsini təmin edir. Texniki şərtlər tikintiyə verilən icazənin tərkib hissəsidir. Tikinti obyektinin mühəndis-kommunikasiya təminatına dair tələblərin məcmusu kimi texniki şərtlərdə aşağıdakılar nəzərdə tutulur:

---

[6] Şəhərsalma və Tikinti Məcəlləsi. Maddə 79. Tikintisinə icazə tələb olunmayan tikinti obyektləri.

[7] "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunu. Maddə 31. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilən hüquqi hərəkətlərə görə tutulan dövlət rüsumunun dərəcələri.

[8] Yenə orada.

- tikinti obyektinin mühəndis-kommunikasiya təminatına dair tələblər;
- tikinti obyektinin mühəndis-kommunikasiya təminatı mənbələri;
- müvafiq mühəndis-kommunikasiya təminatı sisteminə qoşulma nöqtələrinə dair tələblər;
- mövcud mühəndis-kommunikasiya təminatı sisteminin genişləndirilməsinin əsaslandırılması.

Yerli icra hakimiyyəti orqanı texniki şərtlərin alınması üçün təchizat müəssisələrinə sorğu göndərir. Sorğuya tikinti ərazisinin vəziyyət planı, obyektin istismarı üçün mühəndis-kommunikasiya təminatına dair tələbat göstəriciləri barədə sənədlər əlavə edilir.

Təchizat müəssisələri 15 gün ərzində texniki şərtlərlə bağlı sorğuya cavab verməlidirlər. Texniki şərtlərin verilməsi zamanı sifarişçinin üzərinə mühəndis-kommunikasiya təminatına dair sorğuda nəzərdə tutulmamış əlavə öhdəliklər qoyula bilməz.

Texniki şərtlər tikiləcək olan istixanaya elektrik, qaz və suvarma suyu xətlərinin birləşdirilməsi üçün səlahiyyətli orqanlardan ("Meliorasiya və Su Təsərrüfatı ASC, "Azəriqaz" İstehsalat Birliyi, Bakıda "Bakıelektrikşəbəkə", Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərində və digər rayonlarda "Azərenerji") alınır[9].

## *2.2 Quraşdırılmış və ya tikilmiş istixanaların dövlət qeydiyyatı*

Tikintiyə icazənin verildiyi vaxtdan 3 il ərzində tikintiyə başlanılmadığı və ya tikinti 3 il ərzində dayandırıldığı hallarda, tikintiyə icazə qüvvəsini itirir. Müddət sifarişçinin yazılı müraciəti əsasında uzadılır. Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar Nazirlər Kabinetinin qərarı ilə tənzimlənir[10].

Tikinti layihəsi təsdiq edildikdən sonra istixananın tikilməsi üçün tikinti işlərini aparacaq olan hüquqi və ya fiziki şəxslə (inşaatçı) inşaat müqaviləsi bağlanır. Tikinti işlərini yalnız lisenziyası olan podratçı həyata keçirə bilər. Torpaq sahibi istixananın tikintisinə başlamazdan əvvəl yerli icra hakimiyyətindən tikinti-quraşdırma işlərinin aparılmasına icazə almalı və onun surətini podratçıya təqdim etməlidir.

Tikinti işləri başa çatdıqdan tiklilinin istifadəyə qəbulu həyata keçirilir. Qəbul tikintini sifariş edənin müəyyən etdiyi qəbul komissiyası tərəfindən aparılır və istifadəyə qəbul aktı tərtib olunur.

Obyekt qəbul aktı əsasında təhvil alındıqdan sonra dövlət qeydiyyatına alınmalıdır. Dövlət qeydiyyatı üçün Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin (DƏDRX) tikilinin yerləşdiyi ərazi üzrə yerli idarəsinə tikilinin mülkiyyətçisi tərəfindən müraciət olunur və aşağıdakı sənədlər təqdim edilir:

- **Ərizə;**

---

[9] Bu barədə bələdçinin "İstixanalar üçün texniki şərtlərin alınması" adlı bölməsində ətraflı məlumat verilib.

[10] "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

- **Yerli icra hakimiyyəti orqanının tikinti işlərinin aparılmasına icazə verən qərarı (istixana tikilərkən təqdim edilir);**
- **Tikilinin istifadəyə qəbul aktı (istixana tikilərkən təqdim edilir);**
- **Tikilinin və onun tərkib hissələrinin texniki sənədləri, plan-cizgisi;**
- **Dövlət rüsumunun ödənilməsi barədə qəbz.**

Tikili üzərində mülkiyyət hüquqlarının qeydiyyata alınması üçün mülkiyyətçi dövlət reyestrindən çıxarışın verilməsi üçün 30 AZN dövlət rüsumu ödəyir[11]. Bununla yanaşı tikilinin inventarlaşdırılması üçün xidmət haqqı ödənilməlidir. Xidmət haqqının məbləği Tarif (qiymət) Şurasının qərarı ilə müəyyən olunur. Bütün sənədlər təqdim edildikdən sonra 20 gün ərzində müəssisəyə mülkiyyət və ya icarə hüququnu təsdiq edən dövlət reyestrində çıxarış və texniki sənədlər verilir.

### 3. İstixanalar üçün texniki şərtlərin alınması

İstixana təsərrüfatlarının normal fəaliyyətlərini təmin etmək üçün onlar mütləq içməəli su, kanalizasiya xidmətləri, suvarma suyu, istilik və elektrik enerjisi ilə təmin olunmalıdırlar. Müasir standartlara cavab verən, Hollandiya, İspaniya, Türkiyə və digər aparıcı ölkələrdən gətirilmiş hazır modullar əsasında qurulmuş istixanaların istilik təchizatı qaz vasitəsi ilə təmin olunur, elektrik enerjisi, suvarma suyu ilə təchizatında problem yaşanmır, havalandırma, isitmə, işıqlandırma sistemləri mexaniki deyil, avtomatik olaraq həyata keçirilir. Lakin Azərbaycanda fəaliyyət göstərən istixanaların əksəriyyəti hazır modullardan deyil, kustar vasitələrlə, dəmir boruların və armaturların qaynaq edilməsi yolu ilə qurulur. Səbəb Avropa istehsalı olan hazır istixana modullarının baha başa gəlməsidir.

Polikarbonatdan olan müasir istixananın hər kvadrat metri 100-150 dollara başa gəlir. Belə istixanaların istismar müddəti çoxdur, təxminən 20 il. Ancaq kustar üsullarla qurulan istixanaların hər hər kvadrat metri üçün üçün təxminən 15 dollar xərc çəkilir. Belə istixanalarda örtük kimi plyonkalardan istifadə olunur. Bu plyonkalar möhkəmliyi və davamlılığı ilə fərqlənməsə də, onların polikarbonatlarla müqayisədə ucuz olması fermerləri cəlb edir. Ölkəmizdə istehsal olunan bu plyonkalar bitkini şaxtanın zərərli təsirindən qorumaqla yanaşı, istixanada optimal temperatur rejiminin saxlanmasını və bitkinin üzərinə günəş şualarının ardıcıl olaraq düşməsini tənzimləyir.

Sahibkarlığa Kömək Milli Fondu mütəmadi kiçik sahibkarlar üçün investisiya layihələri elan edir. Buradan da istixananın quraşdırılması xərcləri ilə bağlı müəyyən nəticələr çıxarmaq olar. Belə layihələrdən birinin "İstixana şəraitində müxtəlif dekorativ güllərin yetişdirilməsi üçün investisiya layihəsi"in ümumi dəyəri 15 000 manat olub[12]. Layihədə xərclər aşağıdakı şəkildə bölüşdürülüb:

---

[11] "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunu. Maddə 26. Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsi, habelə girovun dövlət qeydiyyatına alınması üçün tutulan dövlət rüsumunun dərəcələri.

[12] file:///C:/Users/user/Downloads/Istixana%20dekorativ.pdf

**İstixana təsərrüfatı**

| | |
|---|---|
| İstixananın quraşdırılması (20 man/m2) | 6 000 |
| İstilik sistemi avadanlıqları | 5 000 |
| Suvarma sisteminin quraşdırılması | 1 000 |
| Dövriyyə vəsaitləri və digər xərclər | 2200 |
| Cəmi | 15 000 |

Göründüyü kimi burada texniki şərtlərin alınması ilə bağlı xərclər nəzərdə tutulmayıb.

### 3.1 Su və kanalizasiya xidmətləri

Su və kanalizasiya xidmətlərinə qoşulmaq üçün sahibkarlar "Asan Xidmət"ə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Ərizə*
- *VÖEN (olduğu halda) və şəxsiyyət vəsiqəsi (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün);*
- *Hüquqi şəxsin təmsilçisinə (nümayəndəsinə) verilən müvafiq məktub, nümayəndənin şəxsiyyət vəsiqəsi və VÖEN (hüquqi şəxs olduğu halda);*
- *Mülkiyyəti təsdiq edən sənəd (çıxarış, sərəncam, bələdiyyə qərarı, order və s.);*
- *Tikinti ərazisinin vəziyyət planı;*
- *Binanın (binaların), qeyri-yaşayış sahələrinin bütün yeraltı kommunikasiyaları, xarakteristikası (binaların, qeyri-yaşayış sahələrinin hündürlüyü və ya mərtəbəliliyi, mənzillərin sayı, suya olan tələbatı, axıdılacaq tullantı sularının miqdarı (həcmi) barədə sənəd;*
- *Obyektin tikintisinə dair layihənin surəti.*

**Sahibkarlar bilməlidirlər ki, texniki şərtin verilməsi ödənişlidir. Ödəniş sifariş əsasında müəyyən edilir.**

Texniki şərtin verilməsi **10 iş günü** müddətində həyata keçirilir. Texniki şərt verildikdən sonra 2 il müddətində qüvvədədir. İstixana sahibləri üçün üçün su təchizatı və kanalizasiya sistemlərinə qoşulma işləri və xətlərin çəkilişi sifarişçinin vəsaiti hesabına həyata keçirilir. Qoşulma nöqtəsinə qədər sifarişçi tərəfindən çəkiliş texniki normalara uyğun həyata keçirilməlidir. Qoşulma nöqtəsinə qədər sifarişçi tərəfindən çəkiliş texniki normalara uyğun həyata keçirildikdən, qoşulma xərcləri sifarişçi tərəfindən tam ödənildikdən və müraciət olunduqdan sonra abonentin şəbəkəyə qoşulması **15 iş günü** müddətində həyata keçirilir.

### 3.2 Qazla təchizat

Qazla təchizatın həyata keçirilməsi üçün istixana sahibləri "Asan Xidmət"də "Azəriqaz" İstehsalat Birliyinin əməkdaşlarına müraciət etməlidirlər. Bunun üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Ərizə;*
- *Hüquqi şəxsin təmsilçisinə (nümayəndəsinə) verilən müvafiq məktub və nümayəndənin şəxsiyyət vəsiqəsi (hüquqi şəxs olduğu halda);*
- *VÖEN-in surəti və şəxsiyyət vəsiqəsi (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduğu halda);*
- *Mülkiyyəti təsdiq edən sənəd (çıxarış, sərəncam, bələdiyyə qərarı, order, Mənzil Kommunal İstismar sahələri tərəfindən verilən arayış, MTK tərəfindən verilən müqavilə).*

İnşaat pasportu üçün texniki şərtin alınması üçün isə aşağıdakı sənədlərin təqdim olunması tələb edilir:

- *Ərizə;*
- *Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi;*
- *Hüquqi şəxsin təmsilçisinə (nümayəndəsinə) verilən müvafiq məktub və nümayəndənin şəxsiyyət vəsiqəsi (hüquqi şəxs olduğu halda);*
- *Mülkiyyəti təsdiq edən sənəd (çıxarış, sərəncam, bələdiyyə qərarı, order).*

Layihə dəyişikliyi üçün texniki şərt alınması üçün isə aşağıdakı 3 sənədin təqdim olunması lazımdır:

- *Ərizə;*
- *Şəxsiyyət vəsiqəsi;*
- *Layihə.*

Texniki şərtin verilməsi üçün xidmət haqqı nəzərdə tutulmayıb. Texniki şərtin verilməsi **20 iş günü** müddətində həyata keçirilir. Başqa şəxs müraciət etdiyi halda qanunvericiliklə müəyyən olunmuş qaydada verilən etibarnamə və müraciət edən şəxsin şəxsiyyətini təsdiq edən sənəd, mülkiyyət sahəsinin təyinatı dəyişdirildiyi halda onu təsdiq edən müvafiq icra hakimiyyəti orqanının sərəncamı təqdim edilməlidir.

### 3.3 Elektriklə təchizat

Elektriklə təchizatın həyata keçirilməsi üçün istixana biznesi ilə məşğul olmaq istəyənlər “Asan Xidmət”də “Azərişıq” İstehsalat Birliyinin əməkdaşlarına müraciət etməlidirlər. Bunun üçün aşağıdakı sənədlər təqdim olunmalıdır[13]:

- *Ərizə;*
- *VÖEN (olduğu halda) və şəxsiyyət vəsiqəsi (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduğu halda);*
- *Hüquqi şəxsin təmsilçisinə (nümayəndəsinə) verilən müvafiq məktub, nümayəndənin şəxsiyyət vəsiqəsi və VÖEN (hüquqi şəxs olduğu halda);*
- *Mülkiyyəti təsdiq edən sənəd (çıxarış, sərəncam, bələdiyyə qərarı, order, notarial qaydada təsdiq olunmuş alqı-satqı müqaviləsi və s.);*
- *Tikinti ərazisinin vəziyyət planı;*
- *Obyektin istismarı üçün mühəndis-kommunikasiya təminatına dair tələbat göstəriciləri barədə sənədlər;*
- *Obyektin tikintisinə dair layihənin surəti.*

Elektriklə təchizat zamanı ödənişin məbləği sifariş əsasında müəyyən edilir. Müddət aşağıdakı cədvəldə göstərildiyi kimidir:

| **Xidmət növü** | **150 kvt-a qədər** | **150 kvt-dan çox olduqda** |
|---|---|---|
| Texniki şərtin və layihə-smeta sənədinin hazırlanması | 7 iş günü | Texniki şərtin verilməsi 10 iş günü; Layihə-smeta sənədinin hazırlanması 5 iş günü. |
| Enerji təchizatı şəbəkəsinə qoşulma | 10 iş günü | Layihə-smeta sənədi əsasında müəyyən olunur. |

[13] Kiçik sahibkarlıq subyektləri üçün ilk 4 sənəd təqdim olunmalıdır.

Layihə-smeta sənədi sifarişçiyə təqdim olunduqdan sonra **2 ay ərzində** elektrik şəbəkəyə qoşulma ilə bağlı xərclər ödənilmədikdə, sifarişçi tərəfindən yenidən müraciət olunmalıdır. Sifarişçinin tələb etdiyi elektrik enerjisi (gücü) faktiki obyekt üçün zəruri olan elektrik enerjisinə (gücünə) uyğun olmadıqda bu barədə sifarişçi **5 iş günü** müddətində məlumatlandırılır.

Ərizədə sifarişçi tərəfindən obyekt üçün tələb olunan elektrik enerjisi (gücü) qeyd olunmalıdır. Qeyri-əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması üçün digər qurumların rəyi tələb olunduqda, bu müddət (rəyin alınması üçün nəzərdə tutulan müddət) yuxarıda qeyd olunan qoşulma müddətlərinə şamil olunmur.

### 3.4 Suvarmaya suyu ilə bağlı texniki şərtin alınması

Suvarma suyu ilə bağlı texniki şərtin verilməsi “Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikasının Qanunu (5 iyun 1996-cı il, № 116-IQ), Azərbaycan Respublikasının 26 dekabr 1997-ci il tarixli, 418 saylı Qanunu ilə təsdiq edilmiş Su Məcəlləsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 mart tarixli 84 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə” və Meliorasiya və Su Təsərrüfatı ASC-nin daxili qərarı ilə tənzimlənir. Suvarma suyu ilə bağlı texniki şərtin verilməsi zamanı ödəniş nəzərdə tutulmayıb. Ancaq müəyyən olunmuş qoşulma nöqtəsindən təsərrüfata qədər olan kanalın, arxın və ya boru xəttinin çəkilməsi xərcini sahibkar ödəyir.

Tarif (Qiymət) Şurasının “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən göstərilən sudan pullu istifadə xidmətlərinin tarifləri barədə” 2006-cı il 12 aprel tarixli, 6 saylı qərarına əsasən, suvarma suyunun 1000 kub metri üçün 50 qəpik ödəniş nəzərdə tutulur. Meliorasiya və Su Təsərrüfatı ASC suyu bu qiymətə ölkə ərazisində fəaliyyət göstərən 547 Sudan İstifadəedənlər Birliyinə verir. Birlik isə istismar, təmir və digər xərcləri nəzərə almaqla müqavilə əsasında suyu istehlakçılara satır. Praktikada bunun üçün müqavilə bağlanılması və ya sayğac qoyulmasına rast gəlinmir

## 4 İstixanalarda yetişdirilən məhsullar

Dünyada istixanalarda əsasən gül-çiçək, tərəvəz, meyvə, bostan və tütün yetişdirilir. İstixanalarda bitkilər ekstremal hava şəraitindən, xəstəlik və ziyanvericilərdən effektli mühafizə oluna bildiyinə görə, dünyanın iqlim şəraitindən asılı olmayaraq müxtəlif regionlarında kənd təsərrüfatı məhsullarının istehsalında istixanalardan istifadə geniş yayılıb. Azərbaycanda təxminən 25-27 il əvvəl istixanalar əsasən Bakı və Bakıətrafında gül yetişdirilməsi ilə ixtisaslaşmışdısa, indi vəziyyət kəskin dəyişib. Artıq həm regionlarda istixana təsərrüfatları geniş yayılmağa başılanılıb, həm də belə təsərrüfatlarda yetişdirilən məhsulların çeşidi artıb. Bu gün istixanalar əsasən, tərəvəz və bostan məhsulları istehsalı üzrə ixtisaslaşıblar.

Kənd təsərrüfatı mütəxəssislərinin fikrincə, istixanalarda əkindən qabaq torpaq yaxşılaşdırılmalıdır. Bunun üçün hektara 60-80 tona yaxın çürüntü lazımdır. Yaxud indiki texnologiyalara əsasən küləşlə becərmə də var. Bu zaman isə hektara 140-160 ton küləş presi lazım olur. Normal qulluq zamanı istixanada 1 kv.metr ərazidən 40-45 kq, 1 ştildən isə 13-14 kq məhsul götürülür. Bu sistemdə müasir texnologiyanın tətbiqi məhsulların maya dəyərinin azalmasına səbəb olur .

Hazırda Azərbaycandakı istixana təsərrüfatlarında pomidor və xiyar istehsalının xüsusi çəkisi daha yüksəkdir. Bu da ölkəmizdə ilin bütün fəsillərində əhalinin faraş tərəvəz məhsulları ilə təminatında əhəmiyyətli rol oynayır.

## 5 Kənd təsərrüfatı məhsulları istehsalçılarına şamil olunan güzəştlər

### 5.1 Vergi güzəştləri

Aqrar sahədə çalışan fermerlərin, kəndlilərin vergi yükünü azaltmaq məqsədilə 22 mart 1999-cu il tarixli Prezident fərmanı ilə kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad olunub. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslər Vergi Məcəlləsi ilə müəyyən edilmiş hüquqi şəxslərin mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini, fiziki şəxslər Vergi Məcəlləsi ilə müəyyən edilmiş əlavə dəyər vergisini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar.

Sonuncu dəfə isə 22 noyabr 2013-cü il tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu" ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən müddətli vergi güzəştləri 2014-cü il yanvarın 1-dən başlayaraq daha 5 il uzadılıb.

Qanunvericilik aktlarında "Kənd təsərrüfatı məhsullarının istehsalı və satışı" ifadəsi son vaxtlara qədər dəqiqləşdirilməmişdi. 2017-ci ilin 1 yanvarında Vergi Məcəlləsinə edilmiş dəyişiklilərdən sonra bu məsələyə aydınlıq gətirilib, Məcəllənin anlayışlar bölməsinə[14] "kənd təsərrüfatı məhsullarının istehsalı" və "kənd təsərrüfatı məhsullarının satışı" adlı yeni bəndlər daxil edilib:

*"13.2.60. kənd təsərrüfatı məhsullarının istehsalı – sənaye üsulu (o cümlədən xüsusi broyler təsərrüfatları, avtomatlaşdırılmış tövlə sistemləri və sair) da daxil olmaqla, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların (ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən) əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsi;*

[14] Maddə 13. Bu Məcəllədə istifadə edilən əsas anlayışlar

*13.2.61. kənd təsərrüfatı məhsullarının satışı – bu Məcəllənin məqsədləri üçün aşağıdakı tələblər çərçivəsində kənd təsərrüfatı məhsullarının təqdim edilməsi:*
*13.2.61.1. istehsal olunan (o cümlədən sənaye üsulu ilə, xüsusi broyler təsərrüfatlarında, avtomatlaşdırılmış tövlə sistemlərində və digər yerlərdə) canlılar diri şəkildə, habelə onlardan diri şəkildə olarkən əldə edilmiş məhsullar ilkin formada, heç bir kimyəvi təsirə məruz qalmadan təqdim edilməlidir"*

**5.2 Digər güzəştlər**

2007-ci ildən başlayaraq kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilir. Eyni zamanda, «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına mineral gübrələrin güzəştlə satışı həyata keçirilir.

Kənd təsərrüfatı məhsullarının istehsalı üçün sərf olunan yanacaq və motor yağlarının dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsinin təmin edilməsi üçün dövlət büdcəsindən ayrılması nəzərdə tutulmuş vəsait hesabına istehsalçılara genetik modifikasiya olunmamış bitkilərin (pambıq və tütün istisna olmaqla) hər hektar əkin sahəsinin və çoxillik əkmələrin becərilməsinə görə (istehsal etdiyi məhsulun növündən asılı olmayaraq) 50 manat məbləğində yardım verilməsi müəyyən edilib.

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına satılan mineral gübrələrin, pestisidlərin və ölkədə sənaye üsulu ilə istehsal edilmiş biohumusun qiymətinə 70 faiz güzəşt tətbiq edilməklə, hər hektar genetik modifikasiya olunmamış bitkilərin əkin sahəsinə və çoxillik əkmələrə görə mineral gübrələrin və biohumusun satış qiymətinə tətbiq edilən güzəştin ümumi məbləğinin yuxarı həddi 100 manat, pestisidlərin satış qiymətinə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddi 10 manat məbləğində müəyyən olunub[15].

Bütün bunlarla yanaşı, kənd təsərrüfatının texniki təminatının yaxşılaşdırılması məqsədilə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılıb ki, cəmiyyət istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnikanın verilməsini həyata keçirir.

Nazirlər Kabinetinin 15 avqustun 2014-cü il tarixdə təsdiq etdiyi "Aqrolizinq" ASC tərəfindən yeni alınan, lizinqə verilən və lizinq yolu ilə satılan texnikaya güzəştlərin tətbiq edilməsi Qaydaları"na görə, kənd təsərrüfatı texnikasının qalıq dəyəri (məbləği) onun ilkin məbləğinin 40%-i həcmində və ya ondan az olduqda, "Aqrolizinq" ASC-nin zərəri hesabına faktiki qalıq məbləği həcmində güzəşt tətbiq edilməklə, "Aqrolizinq" ASC və istifadəçi arasındakı lizinq (icarə) müqaviləsinə xitam verilməsi ilə bağlı Xüsusi Komissiya tərəfindən müvafiq qərar qəbul edilir.

---

[15] http://e-qanun.az/alpidata/framework/data/12/c_f_12851.htm#_edn3

Həmin texnikanın istifadəçinin mülkiyyətinə keçməsi Azərbaycanın mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada rəsmiləşdirilir. Kənd təsərrüfatı texnikasının qalıq dəyəri (məbləği) onun ilkin məbləğinin 40 faizindən çox olduqda və ilkin məbləğinin ən azı 20%-nin ödənildiyi təqdirdə, "Aqrolizinq" ASC-nin zərəri hesabına ilkin məbləğin 40%-i həcmində güzəşt tətbiq edilməklə, yeni lizinq müqaviləsinin bağlanılması barədə Xüsusi Komissiya tərəfindən qərar qəbul edilir.

## 6 İstixanalarda məhsul yetişdirən sahibkarların ödəməli olduqları vergilər

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi və fiziki şəxslər (o cümlədən, istixana şəraitində məhsul istehsalı ilə məşğul olan sahibkarlar) qanunvericilikdə qeyd olunduğu kimi torpaq vergisini ödəməlidirlər. Bundan əlavə, öhdəliyin yaranmasından asılı olaraq ödəmə mənbəyindən tutulan vergiləri (müzdlu iş, icarə və sair) və icbari sosial sığorta haqqını ödəməlidirlər.

### *6.1 Torpaq vergisi*

Torpaq vergisinin hesablanılması və ödənilməsi qaydası Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə tənzimlənir. Torpaq vergisi hüquqi və fiziki şəxslərin şəxslərin topaq vergisi olmaqla fərqləndirilir. Hüquqi şəxslər torpaq vergisini dövlət büdcəsinə, fiziki şəxslər isə bələdiyyə büdcəsinə ödəyirlər.

Vergi Məcəlləsinə görə, torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanır. Rezident və qeyri-rezident fiziki şəxslər, habelə rezident və qeyri-rezident müəssisələr torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında 1 ay ərzində uçota durmalıdırlar. Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir[16].

Fiziki şəxslərin və müəssisələrin Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır.

Torpaq vergisinin dərəcələrinə gəlincə, o aşağıdakı qrup torpaqlar üzrə fərqləndirilir:

- Kənd təsrrüfatı torpaqları;
- Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar;
- Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar.

Kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi 1 şərti bal üçün 0,06 manat müəyyən edilib. Nazirlər Kabineti[17] tərəfindən kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə

[16] Azərbaycan Respublikası Vergi Məcəlləsi. XIV fəsil. Torpaq vergisi

[17] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 29 dekabr tarixli 230 nömrəli qərarı ilə təsdiq edilmiş Kadastr

kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla, şərti balları müəyyənləşdirilib. Aşağıdakı cədvəldə rayonlar və ora daxil olan inzibati rayonlar üzrə keyfiyyət qrupları üzrə şərti ballarla tanış olmaq mümkündür.

**Cədvəl 1. Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinat, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları**

| Sıra N - si | Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar | Keyfiyyət qrupları | Bonitet şkalası | Torpaq vergisinin hesablanması üçün əkin, dinc və çoxillik əkmələrin altındakı torpaqların 1 hektarının şərti balları |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| 1. | **Abşeron-Qobustan** (Abşeron rayonu, Hacıqabul rayonunun Nəvahi-Atbulaq massivi, Siyəzən) və Xızı rayonlarının düzən torpaqları, habelə Bakı və Sumqayıt şəhərlərinin mövcud hüdudundan kənarda olan kənd təsərrüfatı təyinatlı torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 85<br>70<br>60<br>25<br>- |
| 2 | **Şabran-Xaçmaz** (Xaçmaz rayonu, Şabran, Quba, Qusar və Siyəzən rayonlarının düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 121<br>89<br>57<br>35<br>- |
| 3 | **Qanıx-Türyançay** (Balakən, Qax, Zaqatala, Şəki, Oğuz və Qəbələ rayonlarının düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 180<br>115<br>50<br>15<br>- |

---

qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinat, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları.

| | | | | |
|---|---|---|---|---|
| 4 | **Şəki-Zaqatala**<br>(Balakən, Qax, Zaqatala, Şəki, Oğuz və Qəbələ rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 200<br>150<br>90<br>25<br>- |
| 5 | **Qusar-Qonaqkənd**<br>(Qusar, Quba, Şabran, Siyəzən və Xızı rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 40<br>20<br>10<br>5<br>- |
| 5a | **Xınalıq-Xaltan**<br>(Qusar və Quba rayonlarının orta və yüksək dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 38<br>24<br>23<br>8<br>- |
| 6 | **Dağ-Şirvan**<br>(Şamaxı, İsmayıllı rayonları, Ağsu və Göyçay rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 66<br>50<br>33<br>19<br>- |
| 6a | **Qobustan-Xilmilli**<br>(Qobustan rayonunun dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 58<br>44<br>29<br>16<br>- |
| 7 | **Gəncə-Qazax**<br>(Samux rayonu, Goranboy, Göygöl, Tovuz, Ağstafa, Şəmkir və Qazax rayonlarının düzən torpaqları, habelə Gəncə və Naftalan şəhərlərinin mövcud hüdudundan kənarda olan kənd təsərrüfatı təyinatlı torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 60<br>45<br>38<br>26<br>- |
| 8 | **Mil-Qarabağ** | I | 100-81 | 127 |

| | | | | |
|---|---|---|---|---|
| | (Bərdə, Ağcabədi, Beyləqan, Tərtər rayonları, Ağdam, keçmiş Ağdərə rayonunun ərazisi və Xocavəndin düzən torpaqları) | II<br>III<br>IV<br>V | 80-61<br>60-41<br>40-21<br>20-1 | 102<br>80<br>45<br>- |
| 9 | **Arazboyu**<br>(Füzuli, Zəngilan və Cəbrayıl rayonlarının düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 56<br>41<br>37<br>20<br>- |
| 10 | **Daşkəsən-Gədəbəy**<br>(Gədəbəy, Daşkəsən rayonu, Goranboy, Göygöl, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 42<br>35<br>26<br>16<br>- |
| 11 | **Laçın-Qubadlı**<br>(Kəlbəcər, Laçın, Qubadlı rayonları və Zəngilan rayonunun dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 29<br>23<br>17<br>11<br>- |
| 12 | **Dağ-Qarabağ**<br>(Şuşa, Xocalı rayonları, Xocavənd, keçmiş Ağdərə rayonunun ərazisi, habelə Ağdam, Füzuli, Cəbrayıl rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 42<br>30<br>27<br>20<br>- |
| 13 | **Muğan-Salyan**<br>(Salyan, Saatlı, Sabirabad, İmişli, Neftçala və Biləsuvar rayonları, Hacıqabulun Kür qırağı düzən hissəsi, habelə Şirvan şəhərinin mövcud hüdudundan kənarda olan kənd təsərrüfatı təyinatlı torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 98<br>92<br>75<br>33<br>- |
| 14 | **Aran-Şirvan** | I | 100-81 | 84 |

| | | | | |
|---|---|---|---|---|
| | (Kürdəmir, Zərdab, Ucar, Yevlax, Ağdaş rayonları, Ağsu, Göyçay rayonlarının düzən torpaqları və Mingəçevir şəhərinin mövcud hüququndan kənarda olan kənd təsərrüfatı təyinatlı torpaqları) | II<br>III<br>IV<br>V | 80-61<br>60-41<br>40-21<br>20-1 | 75<br>65<br>30<br>- |
| 15 | **Lənkəran-Astara**<br>(Lənkəran, Masallı və Astara rayonlarının düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 125<br>117<br>92<br>50<br>- |
| 16 | **Cəlilabad**<br>(Cəlilabad rayonunun düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 73<br>59<br>47<br>-<br>- |
| 16a | **Üçtəpə-Təzəkənd**<br>(Cəlilabad rayonunun dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 60<br>48<br>58<br>-<br>- |
| 17 | **Lerik-Yardımlı**<br>(Lerik, Yardımlı rayonları, Masallı, Lənkəran və Astara rayonlarının dağ torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 35<br>24<br>18<br>-<br>- |
| 18 | **Şərur-Ordubad**<br>(Şərur, Sədərək, Babək, Ordubad və Culfa rayonlarının düzən torpaqları) | I<br>II<br>III<br>IV<br>V | 100-81<br>80-61<br>60-41<br>40-21<br>20-1 | 53<br>40<br>31<br>20<br>- |
| 19 | **Şahbuz-Paraqaçay**<br>(Şahbuz rayonu, Şərur, Sədərək, Babək, Ordubad, | I<br>II<br>III | 100-81<br>80-61<br>60-41 | 24<br>18<br>12 |

| | | | | |
|---|---|---|---|---|
| | Culfa rayonlarının dağ torpaqları) | IV<br>V | 40-21<br>20-1 | 8<br>- |

İstixana təsərrüfatlarının bəzi hallarda həyətyanı sahələrdə və bağ sahələrinin tutduğu torpaqlarda qurulduğunu nəzərə alaraq adıçəkilən torpaq vergilərinin hesablanması qaydasına baxaq. Hazırda bu vergilərin hesablanması qaydası cədvəl 2-dəki kimidir:

**Cədvəl 2. Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlara görə vergilərin hesablanması qaydası (1 yanvar 2015-ci ildən etibarən)**

| **Yaşayış məntəqələri** | **Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar (manatla)** | |
|---|---|---|
| | 10000 m²- dək olduqda | 10000 m²–dən yuxarı olan hissə üçün |
| Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri | 0,6 | 1,2 |
| Gəncə, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunun qəsəbə və kəndləri | 0,5 | 1,0 |
| Digər şəhərlər və rayon mərkəzləri | 0,3 | 0,6 |
| Rayon tabeliyində olan şəhərlər, qəsəbələr və kəndlər | 0,1 | 0,2 |

### 6.1.1 Fiziki şəxslərin torpaq vergisi ilə bağlı güzəştlər

Aşağıda göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır:

- Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının;
- Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının;
- Müharibə əlillərinin;
- Həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin);
- 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin;

- Qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin;
- Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin[18].

## 6.2 Ödəmə mənbəyində vergi

Kənd təsərrüfatı məhsulları istehsalçıları ödəmə mənbəyində vergini ödəməyə borcludurlar. Bununla bağlı Vergi Məcəlləsində hər hansı güzəşt və ya azadolma nəzərdə tutulmayıb. Tutaq ki, fiziki şəxs sahibkar istixana şəraitində məhsul yetişdirmək məqsədilə başqa bir fiziki şəxsdən icarəyə pay torpağı götürüb. Və hesab edək ki, torpağı icarəyə verən fiziki şəxs vergi ödəyicisi kimi uçotda deyil. Vergi Məcəlləsində nəzərdə tutulduğu kimi, icarə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə icarəyə verən 14 faiz dərəcə ilə vergini özü ödəyir və vergi uçotuna alıb bəyannamə təqdim edir. Eyni yanaşma fiziki şəxs sahibkarın vergu uçotunda olmayan fiziki şəxsdən hər hansı avadanlıq icarəyə götürdüyü hala da şamil olunur.

Qeyd edək ki, Azərbaycan Respublikasında daşınmaz əmlakın (yaşayış fondu istisna olmaqla) vergitutma məqsədləri üçün aylıq icarə haqqının məbləği bazar qiyməti nəzərə alınmaqla müəyyən edilir[19].

### 6.2.1 Muzdla işləyən fiziki şəxslərə görə ödəmə mənbəyində vergi

Kənd təsrrüfatı məhsulları istehsalçıları əgər işə işçi və ya işçilər qəbul edərlərsə, mütləq həmin işçilərə görə ödəmə mənbəyində vergi tutmağa borcludurlar. Vergi Məcəlləsinə görə[20] muzdla işləyən fiziki şəxslərə ödəmələr verən sahibkarlar bu vergiyə cəlb olunurlar. İstixanada məhsul yetişdirməklə məşğul olan fiziki şəxs sahibkarlar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamağa və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq büdcəyə köçürməyə borcludurlar.

Qeyd edək ki, ödəmə mənbəyində tutulan vergilər barədə Vergilər Nazirliyinin müəyyən etdiyi formada bəyannaməni ödəmə mənbəyində vergini tutanlar rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq və ödəmə mənbəyində vergi tutan ƏDV ödəyiciləri və sadələşdirilmiş vergi ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq vergi orqanına verməlidirlər.

Ödəmə mənbəyində verginin azaldıması və ödənməməsinə görə Vergi Məcəlləsində maliyyə sanksiyaları nəzərdə tutulur. Verginin (o cümlədən, ödəmə mənbəyində verginin) hesabatda göstərilən

---

[18] Vergi Məcəlləsi. Maddə 207. Vergi güzəştləri.

[19] Yenə orada. Maddə 124.4

[20] Vergi Məcəlləsi. Maddə 150. Ödəmə mənbəyində verginin tutulması qaydası

məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir[21].

Ümumiyyətlə, kənd təsərrüfatı məhsulları istehsalçıları qanunvericilkdə müəyyən edilmiş istisnalar nəzərə alınmaqla, əldə etdikləri digər gəlirlər üzrə Vergi Məcəlləsinin maddələrinə müvafiq olaraq ümümi qaydada vergiyə cəlb olunurlar.

### 6.3 Məcburi dövlət sosial sığorta haqqı

Məcburi dövlət sosial sığorta haqqı sığortalamaya görə sığortaçı təşkilata verilən pul vəsaitidir. Məcburi dövlət sosial sığortasında sığorta haqqı əmək ödənişinə (gəlirə) nisbətdə faizlə müəyyən edilir və sığortaedənin (olunanın) vəsaitləri hesabına ödənilir. **Məcburi dövlət sosial sığorta haqqı başqasını sosial sığorta edən şəxslər üçün—hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərinin 22 faizi miqdarında müəyyənləşdirilib[22].**

Bundan əlavə, mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslərin (hüquqi şəxs yaradanlardan, ailə kəndli təsərrüfatı üzvlərindən başqa) əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) torpaq sahəsinin hər hektarına görə ölkə üzrə müəyyən olunmuş minimum aylıq əmək haqqının:

- torpaqların 1-ci keyfiyyət qrupu üzrə — 12 faizi;
- torpaqların 2-ci keyfiyyət qrupu üzrə — 8 faizi;
- torpaqların 3-cü keyfiyyət qrupu üzrə — 4 faizi;
- torpaqların 4-cü keyfiyyət qrupu üzrə — 2 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödənilir[23].

Qanunvericiliyə görə[24], ticarət və tikinti sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər ölkə üzrə müəyyən olunmuş minimum aylıq əmək haqqının 50 faizi məbləğinin, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə 20 faizi məbləğinin:

- Bakı şəhərində 100 faizi,
- Sumqayıt və Gəncə şəhərlərində 90 faizi,

respublika tabeli digər şəhərlərdə 80 faizi,

rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi,

kənd yerlərində 50 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

---

[21] Vergi Məcəlləsi.. Maddə 58. Vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyaları

[22] "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. Maddə 14. Məcburi dövlət sosial sığorta haqqı

[23] Yenə orada

[24] "Sosial Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. Maddə 14. Məcburi dövlət sosial sığorta haqqı

Nəzərə alsaq ki, Azərbaycanda minimum əmək haqqı 116 manatdır, onda yuxarıda verilənlərə uyğun sadə bir hesablama aparmaqla istixana biznesi sahəsində məcburi dövlət sosial sığorta haqqının regionlar üzrə aşağıdakı şəkildə müəyyənləşdirildiyini deyə bilərik:

- **Bakı şəhərində - 23.20 manat;**
- **Sumqayıt və Gəncə şəhərlərində - 20.90 manat;**
- **Respublika tabeli digər şəhərlərdə - 18.60 manat;**
- **Rayon mərkəzlərində, digər şəhər və qəsəbələrdə - 13.90 manat;**
- **Kənd yerlərində - 11.60 manat.**

Qanunvericiliyə uyğun olaraq hər ay üçün hesablanmış məcburi dövlət sosial sığorta haqqı əmək haqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağd və ya nağdsız hesablaşma qaydasında ödənilməlidir.

Məcburi dövlət sosial sığorta haqları ödənilmədikdə və ya ödənilməsi gecikdirildikdə, yaranmış borc məbləğləri aşağıdakı qaydada alınır:

- sığortaedən məcburi dövlət sosial sığorta haqlarını bu qanunla müəyyən edilmiş müddətdə ödəmədikdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Sosial Müdafə Fondu (DSMF) bu qanuna müvafiq olaraq hesablanmış və ya yenidən hesablanmış məcburi dövlət sosial sığorta haqları üzrə borcların və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsinə dair sığortaedənə bildiriş göndərir;
- hesablanmış və ya yenidən hesablanmış məcburi dövlət sosial sığorta haqları üzrə borclar və ya tətbiq edilmiş maliyyə sanksiyaları sığortaedən tərəfindən bildirişdə göstərilən müddətdə ödənilmədiyi halda, DSMF sığortaedənin cari, valyuta və digər hesablarından məcburi dövlət sosial sığorta haqları üzrə borcların və tətbiq edilmiş maliyyə sanksiyalarının DSMF-nin hesabına alınması üçün banka və ya digər kredit təşkilatına icra sənədi olan sərəncam verir;
- məcburi dövlət sosial sığorta haqları üzrə borcların və tətbiq edilmiş maliyyə sanksiyaları sərəncamın banka və ya digər kredit təşkilatına daxil olduğu gündən 90 gün ərzində ödənilmədikdə, sərəncam geri qaytarılır və həmin borca görə sərəncam bir daha icraya qəbul edilmir, həmin borclar və maliyyə sanksiyaları sığorta edəndən məhkəmə qaydasında alınır.

Sığortaedən hüquqi şəxs olmadıqda, borc məbləği məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında tutulur. Artıq ödənilmiş və ya düzgün tutulmamış məcburi dövlət sosial sığorta haqqı sığortaedənin müraciətinə əsasən geri qaytarılır.

## 7 İşçilərlə əmək müqavilələrin bağlanılması

Azərbaycan Respublikasında işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətləri Əmək Məcəlləsi tənzimləyir. İşəgötürən işçi əmək müqaviləsi bağlamaqla işə başlaya bilər.

Sahibkarlar unutmasınlar ki, qüvvədə olan qanunvericiliyə görə, əmək müqaviləsini 15 yaşına çatmış hər bir şəxs bağlaya, bu yaşa çatmış hər bir şəxs əmək münasibətində ola bilər. Yaşı 15-dən aşağı olan şəxs isə işləyə bilməz, bu, qeyri-qanunidir.

Əmək müqaviləsində mütləq aşağıdakı əsas şərtlər və məlumatlar göstərilməlidir[25]:

*a) işçinin soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, onun seriya və nömrəsi, pin kodu, verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;*

*b) işəgötürən hüquqi şəxs olduqda onun adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), hüquqi ünvanı, fiziki şəxs olduqda onun adı, soyadı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN), ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, pin kodu və ya fərdi identifikasiya nömrəsi (FİN), verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;*

c) işçinin iş yeri, vəzifəsi (peşəsi);

ç) əmək müqaviləsinin bağlandığı və işçinin işə başlamalı olduğu gün;

d) əmək müqaviləsinin müddəti;

e) işçinin əmək funksiyası;

ə) işçinin əmək şəraitinin şərtləri — iş və istirahət vaxtı, əmək haqqı və ona əlavələr, əmək məzuniyyətinin müddəti, əməyin mühafizəsi, sosial və digər sığorta olunması;

f) tərəflərin əmək müqaviləsi üzrə qarşılıqlı öhdəlikləri;

g*) işçiyə bədən tərbiyəsi və idmanla, o cümlədən iş rejimi şəraitində və işdən sonrakı reabilitasiya və peşəkar-tətbiqi məşqlərlə, idman-sağlamlıq turizmi ilə məşğul ola bilməsi üçün şəraitin yaradılması*;

x) tərəflərin müəyyən etdiyi əlavə şərtlər barədə məlumatlar.

ğ) ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, işçinin dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN);

h) işçinin iş yerinin əsas və ya əlavə iş yeri olması barədə qeyd.

Əmək müqaviləsi bağlanarkən, həmçinin əmək münasibətlərinə xitam verilənədək Əmək Məcəlləsində işçilər üçün müəyyən edilmiş hüquq və təminatların səviyyəsi azaldıla bilməz. Eyni

---

[25] Əmək Məcəlləsi. Maddə 43. Əmək müqaviləsinin məzmunu

zamanda, Məcəllədə başqa hal nəzərdə tutulmayıbsa, əmək müqaviləsinin şərtləri birtərəfli qaydada dəyişdirilə bilməz.

Əmək müqaviləsi müddətli və müddətsiz bağlanıla bilər. Əmək müqaviləsinin müddətli və ya müddətsiz bağlanılması həmin vəzifənin, işin xüsusiyyətlərindən asılıdır. Müddətli əmək müqaviləsi ən çoxu 5 illik müddətə bağlanıla bilər, yəni işçi ilə 6 illik əmək müqaviləsi bağlamaq olmaz.

İşçi ilə əmək müqaviləsinin bağlanılmamasına görə işəgötürənə cərimə və maliyyə sanksiyaları tətbiq olunur. Əmək müqaviləsinin bağlanılmasına həm VN, həm ƏƏSMN yanında DSMF, həm də ƏƏSMN yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) nəzarət edir.

Vergi orqanları operativ nəzarət və səyyar yoxlamalar zamanı əmək müqaviləsi olmayan işçilər aşkar edərsə, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edir[26].

DƏMX operativ reydlər və yoxlamalar zamanı belə hallar aşkar edəndə fiziki şəxslər min manatdan iki mn manatadək, vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək miqdarda cərimə edilir[27].

DSMX isə işçilərin sayının gizlədilməsinə görə (əmək müqaviləsi olmadan işləyənlər olduqda və ya müqaviləsi olduğu halda hesabatdan gizlədildikdə) hər işçiyə görə sığorta edənin fəaliyyət dövrünün hər ayı üçün əlli beş manat miqdarında cərimə tətbiq edir[28].

İşəgötürənlər əmək qanunvericiliyinin tələblərinə əsasən əmək müqaviləsi bağlanmış işçilərə geniş hüquqlar və təminatlar verirlər. Əmək müqaviləsi ilə işləyən işçini işəgötürənin mülahizələri ilə işdən azad etmək olmaz.

**Qeyd edək ki, son dəyişikliklərdən sonra[29] əmək müqavilələri işəgötürən və işçi tərəfindən imzalandıqdan sonra qüvvəyə minmir.** Müqavilə ƏƏSMN-də qeydiyyatdan keçirilib, işəgötürənə həmin əmək müqaviləsi bildirişi göndəriləndən sonra qüvvəyə minir. İşçi həmin bildirişi alandan sonra işləyə bilər.

Əgər həmin bildiriş almadan işçi işə başlasa, işəgötürəni həm İnzibati Xətalar Məcəlləsinə, həm də Vergi Məcəlləsinə əsasən cərimə və maliyyə sanksiyaları gözləyir.

Qaydalara görə, bildiriş 1 iş günü müddətində işəgötürənə göndərilməlidir. Qanunda keçid müddəaları da müəyyən olunmuşdu. Müddəalarda bildirilirdi ki, 01.07.2014-cü il tarixinə kimi

---

[26]Vergi Məcəlləsi. Maddə 58**.** Vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyaları

[27] İnzibati Xətalar Məcəlləsi. Maddə 192. Əmək qanunvericiliyinin pozulması

[28] «Sosial sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu. Maddə 21. Məcburi dövlət sosial sığortası qaydalarını pozmağa görə maliyyə sanksiyaları

[29] Dəyişikliklər Azərbaycan Resupblikası Prezidentinin 27.12.2013-cü il tarxində imzaladığı qanunla rəsmiləşdirilib.Dəyişikliklərin tətbiqi isə qanunun rəsmi olaraq mətbuatda dərc olunduğu tarixdən (03.02.2014-cü il) başlanır.

işəgötürənlər tərəfindən bu qanun qüvvəyə minənə kimi bağlanılmış əmək müqavilələri ƏƏSMN-də qeydiyyata salınmalıdır.

## 8 İşçilərə sosial sığorta şəhadətnaməsinin alınması və əmək kitabçasına müvafiq yazılışların aparılması

Sahibkarlar bilməlidirlər ki, əmək müqavilələri bağlanılan zaman işçinin təqdim edəcəyi sənədlərdən biri də sosial sığorta şəhadətnaməsidir. Əgər işçinin birinci iş yeridirsə, onda işçi sığorta şəhadətnaməsini təqdim etmir və işçi ilə əmək müqaviləsi bağlandıqdan sonra bir ay ərzində işəgötürən ərizə ilə uçotda olduğu DSMF orqanına müraciət etməlidir.

Fərdi uçot qaydalarının pozulması hallarında cərimələr tətbiq olunur. Sığortaedənlər tərəfindən qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada sığortaolunanlar haqqında məlumatların müvafiq icra hakimiyyəti orqanına təqdim edilməməsinə görə fiziki şəxslər üç yüz manat miqdarında, vəzifəli şəxslər üz yüz əlli manat miqdarında cərimə edilir[30].

İşə qəbul olunan işçi əmək kitabçasını və şəxsiyyətini təsdiq edən sənədi işəgötürənə təqdim etməlidir. İlk dəfə əmək müqaviləsi bağlanarkən əmək kitabçası tələb edilmir. Məcburi köçkün və ya qaçqın statusuna malik olan şəxslərlə, əcnəbilərlə və vətəndaşlığı olmayan şəxslərlə (qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa) əmək kitabçası təqdim edilmədən əmək müqaviləsi bağlana bilər. Əmək kitabçası ƏƏSMN yanında Baş Məşğulluq Xidməti (BMX) tərəfindən təmin olunur. Əmək kitabçası əldə etmək üçün işəgötürən hökmən rayon məşğulluq idarəsinə yazılı müraciət etməlidir. Ancaq müraciətdən əvvəl işəgötürən məşğulluq idarəsində qeydiyyata durmalıdır.

Əmək kitabçası (əlavə içlik) verilən zaman işçidən əmək kitabçasına çəkilmiş xərclərin dəyəri tutulur. İşəgötürən Məşğulluq İdarəsinə məktubla müraciət edəndə alacağı əmək kitabçalarının dəyərini ödəməlidir. Sonradan işçiyə əmək kitabçası açılanda, onun dəyərini ya əməkhaqqıdan tutmalı, ya da işçinin razılığı ilə kassa mədaxil orderi yazmaqla ondan almalıdır.

## 9 İşçilərin icbari sığortaya cəlb edilməsi

2010-cu ilin iyulunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanunun tətbiqinə dair fərman imzalanıb. Qanundan irəli gələn məsələlərin tənzimlənməsi məqsədi ilə NK tərəfindən suğorta olunanların əmək funksiyalarının xarekterinə görə kateqoriyalara bölünməsi qaydası, sığortanın hesablanması və verilməsi, dayandırılması, bərpa edilməsi və ümumiyyətlə, sığorta prosesini əhatə edən qaydalar hazırlanıb. Bu sənədlərə əsasən, hüquqi şəxslə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslə qanunvericiliyə uyğun olaraq bağlanılmış əmək müqaviləsi və ya mülki-hüquqi müqavilə əsasında

[30] İnzibati Xətalar Məcəlləsi. Maddə 477. Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında qanunvericiliyin pozulması

əmək funksiyalarını yerinə yetirən şəxslər və fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər icbari sığortya cəlb olunurlar. Qeyd olunan Qanunun 4-cü maddəsində bildirilir ki, bütün işəgötürənlər öz işçilərini sığortalamalıdırlar.

Qeyd elədiyimiz kimi peşə riskinin dərəcəsindən və sığorta olunanların kateqoriyalarından asılı olaraq təsnifləşdirilmə aparılıb. Bu təsnifata görə "Birillik və çoxillik bitkilərin becərilməsi sahəsində çalışanlar" 3-cü risk sinfinə aiddirlər. 3-cü risk sinfinə daxil olan fəhlə heyətinin sığorta tarifi 0,6%-lə, qulluqçu sinfinə daxil olanlar isə 0,2%-lə hesablanır.

"Birillik bitkilərin becərilməsi" sahəsində çalışanların icbari sığorta ödənişi ilə bağlı bir misala nəzər yetirək. Tutaq ki, Samir Rzayev istixanada çalışır, fəhlə heyətinə daxildir və aylıq əmək haqqı 300 manatdır. Samir Rzayevə görə müəssisənin ödəməli olduğu sığorta tarifini müəyyənləşdirək. İşəgötürənin ödəyəcəyi illik sığorta məbləği 21,60 manat (300x12x0,6%) olacaq. Qeyd edək ki, qanunun 7.2.3.-cü maddəsinə əsasən, sığorta olunanların kateqoriyalarında və peşə riski dərəcələrində dəyişikliklər edildikdə, onların kateqoriyalarında dəyişikliklərin edildiyi andan 10 iş günü müddətində sığortalı sığortaçını bu barədə məlumatlandırmalıdır.

İnzibati Xətalar Məcəlləsində icbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki və hüquqi şəxslər üçün cərimə nəzərdə tutulub. Bu istiqamətdə yoxlamaları Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Dövlət Əmək Müfəttişliyi aparır.

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki şəxslər beş yüz manat miqdarında, vəzifəli şəxslər min beş yüz manat miqdarında, hüquqi şəxslər beş min manat miqdarında cərimə edilir[31].

## 10 İstixanaların quraşdırılması zamanı istifadə olunan karkas və örtük materialları

İstixanaların quraşdırılması zamanı karkas üçün ya alüminum, ya plastik, ya da dəmir işlədilir. Adətən, alüminium və plastikdən quraşdırılan istixanalarda konstruksiya kimi, dəmirdən isə böyük sənaye istixanalarında istifadə edilir.

Alüminium karkaslı istixanaların quraşdırılması zamanı hissələr vintrlər vasitəsilə bir-birlərinə birləşdirilir. Alüminiumum bir üstünlüyü var ki, o korroziyaya davamlıdır, eyni zamanda, onu ağac kimi istədyiniz hissəsindən kəsə bilərsiniz. Amma alüminiumun bir çatışmazlığı var ki, belə istixanaları qızqırmaq baha başa gəlir, bu metal istiliyi yaxşı keçirdiyinə görə itkilər qaçılmazdır.

Plastik karkaslı istixanalar adətən böyük olmur: 60x 120 см başayaraq 180x240 см-ə kimi. Çünki plastmas karkaslar ağırlığa davamlı olmurlar. Güclü qar və dolu yağışı belə karkaslar üçün təhlükəlidir. Son zamanlar yüngül polkarbonat örtüyünə davamlı plastik karkaslar istehsal olunmağa

[31] İnzibati Xətalar Məcəlləsi. Maddə 469. İcbari sığorta müqaviləsinin bağlanmaması

başlanılıb ki, belə karkasların ölçüləri 2,4 x 3 мetr olur. Plastik karkaslı istixanalar heç vaxt paslanmır, ultrabənövşəyi şüalanmaya davamlıdır və istiliyi yaxşı saxlayır, uzunömürlüdür.

Ölkəmizdə ilk istixanaların karkası ya dəmirdən, ya da çuqundan olub. Artıq çuqun karkaslardan demək olar ki, istifadə olunmur. Adətən dəmir karkasları ya boyayır, ya da sinklə örtürlər ki, korroziyaya davamlı olsun. Hazırda ölkəmizdə kiçik sahibkarlar əsasən qaynaqla bir-birlərinə bərkidilmiş dəmir karkaslardan istifadə edirlər.

İstixanaların quraşdırılması zamanı örtük kimi sellofandan, şüşədən və polikarbonatdan istifadə olunur. Digər ikisi ilə müqayisədə polkarbonat istiliyi bayıra verməməsinə, izolyasiyalı olmasına, gün işığını daha yaxşı keçirməsinə, soyuğa, şaxtaya, qara, doluya davamlılığına görə daha keyfiyyətli və uzunömürlü hesab olunur. Bunu nəzərə alaraq aşağıdakı cədvəllərdə həm Rusiya, həm də Avstriya istehsalı olan polikarbonatların qalınlığından asılı olaraq qiymətləri təqdim olunur. Zavod polikarbonatlara 10 il təminat verir.

**Cədvəl 3. Rusiya istehsalı olan polikarbonat (SUNNEX, POLYNEX və GREENHOUSE polikarbonatları)**

| **Layın (listin) qalınlığı, мм** | **Rəngi** | **layın qiyməti (2,1x6м), rublla[32]** | **Layın qiyməti (2,1x12м), rublla** | **Kvadrat metrinin qyməti, rublla** |
|---|---|---|---|---|
| 3,5 | Şəffaf | **1250** | **2500** | 99,21 |
| 4 | Şəffaf | **1500** | **3000** | 119,05 |
| | Rəngli | 1575 | 3150 | 125,00 |
| 6 | Şəffaf | **2400** | **4800** | 190,48 |
| | Rəngli | 2520 | 5040 | 200,00 |
| 8 | Şəffaf | **2900** | **5800** | 230,16 |
| | Rəngli | 3045 | 6090 | 241,67 |
| 10 | Şəffaf | **3400** | **6800** | 269,84 |
| | Rəngli | 3570 | 7140 | 283,33 |
| 16 | Şəffaf | **5900** | **11800** | 468,25 |
| | Rəngli | 6195 | 12390 | 491,67 |
| 20 | Şəffaf | **6750** | **13500** | 535,71 |
| | Rəngli | 7090 | 14175 | 562,50 |
| 25 | Şəffaf | **8350** | **16700** | 662,70 |
| | Rəngli | 8770 | 17535 | 695,83 |
| 32 | Şəffaf | **9250** | **18500** | 734,13 |

[32] Rublun dollara nisbəti 1 dollar = 59 rubldur.

| | | | | |
|---|---|---|---|---|
| | Rəngli | 9715 | 19425 | 770,83 |

**Cədvəl 4. LEXAN (Avstriya) polikarbonatları[33]**

| Layın qalınlığı, мм | Rəngi | Layın qiyməti (2,1x6м), dollarla | Layın qiyməti, (2,1x12м), dollarla | Kvadrat metrinin qyməti, dollarla |
|---|---|---|---|---|
| **4** | Şəffaf | 72.2 | 144.44 | 5.73 |
| | Rəngli | 75.83 | 151.70 | 6.02 |
| **4.5** | Şəffaf | 85.83 | 171.70 | 6.80 |
| **6** | Şəffaf | 130.55 | 261.10 | 10.40 |
| **8** | Şəffaf | 150.69 | 301.40 | 12.00 |
| | Rəngli | 159.20 | 316.40 | 12.55 |
| **10** | Şəffaf | 175.70 | 351.40 | 13.94 |
| | Rəngli | 184.44 | 368.90 | 14.70 |
| **16** | Şəffaf | 271.25 | 542.50 | 21.50 |
| | Rəngli | 284.86 | 569.70 | 22.60 |

[33] Layın qalınlığı 4 mm-dən başlayır. Laylara xüsusi qoruyucu laklar vurulur ki, bu da onların ömrünü Ruisya istehsalı olan polkarbonatlarla müqayisədə 2.5 dəfə artırır. Laylara şəffaflığın və rəngin pozulmaması şərtilə 10 il təminat verilir.